**Dövlət qurumları tərəfindən etik davranış məsələləri ilə bağlı aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və buna görə tətbiq edilmiş intizam tənbehi tədbirləri barədə illik hesabatların hazırlanması və bu barədə məlumatların açıqlanması**

"Açıq hökümətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı" ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 27.02.2021-ci il tarixli 1859 nömrəli Sərəncamının 1.9 bəndinin icrası ilə bağlı Nazirliyin və Regional Mədəniyyət İdarələrinin dövlət qulluqçularının iştirakı ilə 20.04.2021-ci il tarixində "Dövlət qulluğu və kadr siyasəti" ilə bağlı 25 nəfərdən ibarət vebinar, 13.05.2021-ci il tarixində "İdarəetmənin təkmilləşdirilməsində dövlət qulluqçularının rolu" mövzusunda 30 nəfərdən ibarət videokonfrans, 25.05.2021-ci il tarixində "Dövlət qulluğu dövlət idarəçiliyinin əsas komponentlərindən biri kimi" mövzusunda 30 nəfərdən ibarət videokonfranslar keçirilmişdir. Keçirilmiş videokonfranslarda etik davranış məsələləri ilə bağlı mövzulara geniş yer verilmişdir.

Nazirliyin iş planına əsasən 2021-ci ilin may ayında Şəki Regioanal Mədəniyyət İdarəsində yoxlamalar aparılmış və etik davranış qaydalarının pozulması halları aşkar edilmişdir (nazirliyin əmr, sərəncam və ya tapşırıqların yerinə yetirilməməsi), yoxlamanın nəticəsi olaraq 2021-ci il 18 iyun tarixində Şəki Regioanal Mədəniyyət İdarəsinin rəisi Mirvari İbrahim qızı Zeynalovaya və baş məsləhətçi-Balakən rayonu üzrə nümayəndə Şəfəq Sabir qızı Hacıyevaya nazirliyin müvafiq əmri ilə "töhmət" intizam tənbehi verilmiş (əmr əlavə olunur), gələcəkdə bu kimi hallar təkrarlanacağı təqdirdə, daha ciddi intizam məsuliyyətinə cəlb olunacaqları bildirilmişdir.

Nazirliyin iş planına əsasən 2021-ci ilin noyabr ayında yenidən Şəki Regioanal Mədəniyyət İdarəsində aparılmış yoxlamarda daha öncə aparılmış pozuntuların təkarlandığı aşkar edilmişdir və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci və 33.1.6-cı maddələrinə əsasən 2021-ci il 12 dekabr tarixində Şəki Regioanal Mədəniyyət İdarəsinin rəisi Mirvari İbrahim qızı Zeynalovanın dövlət qulluğuna nazirliyin müvafiq əmri ilə xitam verilmişdir.